Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Şadam ki, ölkənizin və bütün region xalqlarının rifahı naminə həyata keçirdiyiniz uğurlu fəaliyyətinizi bundan sonra da davam etdirəcəksiniz. Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti fəaliyyətinizdə Sizə müvəffəqiyyətlər və rəhbər müdrikliyi arzu edirəm. Dövlətlərimiz arasında davamlı və hərtərəfli strateji münasibətlərin təmin olunması Gürcüstan üçün çox əhəmiyyətlidir və mən qəti inanıram ki, biz ölkələrimizi bir-birinə daha da yaxın etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Əminəm ki, Azərbaycan Respublikası vətəndaşlarının Sizə göstərdiyi etimad zati-alinizi ölkənizin milli birliyini, inkişafını, təhlükəsizliyini və rifahını daha da möhkəmləndirmək üçün səylərinizi davam etdirməyə ruhlandıracaq.

İnanıram ki, əlaqələrimizin və qarşılıqlı maraq doğuran bütün sahələrdə tərəfdaşlığımızın daha da genişləndirilməsi üçün Sizinlə əməkdaşlığımız uğurla davam edəcək.

Sizi səmimi qəlbdən bir daha təbrik edir və uğurlarınızın davamlı olmasını arzulayıram.

*Hörmətlə,*

***Giorgi KVİRİKAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

---

Azərbaycan.- 2018.- 14 aprel.- S.2.